

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 105 (23.267)

*8 iyun 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Babək Rayon Elektrik Şəbəkəsinin inzibati binası və yarımstansiyası istifadəyə verilib

Muxtar respublikanın davamlı inkişafını xarakterizə edən amillərdən biri də enerji təhlükəsizliyinin təmin olunması və müasir elektroenergetika infrastrukturunun yaradılmasıdır. Elektrik enerjisinin istehsalı ilə yanaşı, onun istehlakçılara etibarlı və itkisiz çatdırılması da əsas məsələlərdəndir.

İyunun 7-də Babək Rayon Elektrik Şəbəkəsinin yeni inzibati binası və yarımstansiyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.




Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev çıxış edərək demişdir ki, muxtar respublikada energetika sisteminin inkişafı sahəsində ardıcıl tədbirlər görülür, enerji təchizatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Yeni elektrik stansiyalarının istifadəyə verilməsinin və energetika təsərrüfatının müasir tələblər səviyyəsində qurulmasının nəticəsidir ki, istehlakçılar dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunurlar. Babək Rayon Elektrik Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyasının istifadəyə verilməsi də muxtar respublikada elektroenergetika sisteminin inkişafı sahəsində görülən işlərin davamıdır. Namiq Paşayev göstərilən qayğıya görə muxtar respublika energetikləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, qarşıya qoyulan vəzifələrin icrasında səylərini əsirgəməyəcəklərinə söz vermişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Babək Rayon Elektrik Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Ötən əsrin 90-cı illərində muxtar respublikada elektrik enerjisinə olan tələbat idxal hesabına ödənilirdi. Lakin ötən dövrdə ölkəmizdə energetikanın inkişafı sahəsində həyata keçirilmiş tədbirlərin tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasında da yeni su və günəş elektrik stansiyaları, modul elektrik stansiyası istifadəyə verilmiş, qaz-turbin elektrik stansiyası yenidən qurulmuşdur. İstehsal olunmuş elektrik enerjisinin istehlakçılara keyfiyyətli çatdırılması da diqqətdə saxlanılmış, yeni yarımstansiyalar tikilmişdir. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikada elektrik enerjisinə olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.



Ali Məclisin Sədri demişdir: Muxtar respublikada müasir elektrik avadanlıqlarından istifadə olunur. Həmin avadanlıqların uzunömürlü olması elektrik enerjisinin keyfiyyətli verilməsindən asılıdır. Bu da yarımstansiyaların müasir tələblər səviyyəsində qurulmasını zəruri edir. Həyata keçirilən bu işlər bir tərəfdən əhalini keyfiyyətli elektrik enerjisi ilə təmin edirsə, digər tərəfdən isə enerji itkisinin qarşısını alır. Muxtar respublikada energetika sahəsində görülən işlər, qurulan müasir yarımstansiyalar daxili imkanlar – ödənilmiş enerji haqları hesabına həyata keçirilir. Ona görə də elektrik enerjisi haqları bundan sonra da tam yığılmalı, enerjidən qənaətlə istifadə olunmalıdır. Bu gün istifadəyə verilən yarımstansiya Babək rayonunun elektrik istifadəçilərinin 20 faizinə xidmət göstərəcəkdir. Yarımstansiya üzrə tələbat yay aylarında 1,8, qış aylarında isə 1,2 meqavatdır. Quraşdırılan müasir avadanlıqlar imkan verəcəkdir ki, yarımstansiya uzun illər istehlakçılara keyfiyyətli xidmət göstərsin. Bu isə energetika sahəsində qazanılan nailiyyətdir. Qarşıda duran əsas vəzifə də əhalini keyfiyyətli elektrik enerjisi ilə təmin etməkdən, qurulanları qorumaqdan və onlardan səmərəli istifadə etməkdən ibarətdir.

Ali Məclisin Sədri inzibati binanın tikilməsində və yarımstansiyanın qurulmasında əməyi olanlara təşəkkür etmiş, qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamışdır.

Açılışı bildirən lent kəsildikdən sonra binaya baxış olmuşdur. Bildirilmişdir ki, 35/10 kilovoltluq yarımstansiyanın idarəetmə otağı, 35 və 10 kilovoltluq qapalı paylayıcı quruluşlar, əməliyyat briqadası üçün otaqlar və bufet birinci mərtəbədə, iş otaqları və iclas zalı isə ikinci mərtəbədə yerləşir.

Yenidənqurma işləri aparılarkən yarımstansiyanı qidalandıran 35 kilovoltluq və yarımstansiyadan qidalanan 10 kilovoltluq elektrik verilişi xətlərinin yeri dəyişdirilmiş, bu məqsədlə 1,2 kilometr uzunluğunda 35 kilovoltluq, 1,8 kilometr uzunluğunda 10 kilovoltluq yeni xətlər çəkilmişdir. 8 meqavoltamper gücündəki yarımstansiyada hər biri 4 meqavoltamper gücündə 2 ədəd 35/10 kilovoltluq güc transformatorları, rele mühafizəsi və avtomatik qurğular ilə təchiz edilmiş kommutasiya aparatları quraşdırılmışdır. Həmçinin avadanlıqların normal iş prosesinə məsafədən nəzarətin həyata keçirilməsi üçün yarımstansiya optik kabellər və lazımi nəzarət qurğuları ilə təchiz edilmişdir.

Həyətdə də abadlıq işləri aparılmış, 2 anbar binası tikilmiş, yaşıllıq salınmışdır.

Məlumat verilmişdir ki, muxtar respublikada yüksəkgərginlikli elektrik xətlərinə xidmət göstərmək üçün Dövlət Energetika Xidmətinə yeni "Mercedes-benz" markalı xidməti avtomobil alınmışdır.

Ali Məclisin Sədri istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi, elektrik enerjisindən qənaətlə istifadə olunması və maarifləndirmə işlərinin görülməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda müasir ağacyetişdirmə sahəsi – "İqlim otağı" fəaliyyətə başlamışdır

İyunun 7-də Naxçıvan Yaşıllaşdırma Xidməti üçün yeni ağacyetişdirmə sahəsi – "İqlim otağı" istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Naxçıvan Yaşıllaşdırma Xidmətinin direktoru Səyahət İmanov çıxış edərək demişdir ki, muxtar respublikada yaşıllıqların sahəsi ilbəil artırılır, yeni meyvə bağları salınır. Bu da tingçilik təsərrüfatlarının inkişafını zərurətə çevirmişdir. Xüsusilə müxtəlif meyvə və həmişəyaşıl tinglərə, gül və bəzək kollarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır. Yaşıllaşdırma Xidmətinin tingçilik sahəsi üçün yeni kompleksin tikilməsi və "İqlim otağı"nın yaradılması da bu sahədə görülən işlərin davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada müasir ağacyetişdirmə sahəsinin – "İqlim otağı"nın istifadəyə verildiyini bildirmiş, bu münasibətlə kollektivi təbrik edərək demişdir: Ötən əsrin 90-cı illərinin acı nəticələri muxtar respublika təbiətinə də təsir etmiş, ağaclar kütləvi qırılmış, yaşıllıqlar məhv edilmişdi. 1995-ci ilin statistikasına əsasən həmin dövrdə muxtar respublikada yaşıllıqlar ümumi ərazinin 0,6 faizini təşkil edirdi. Lakin ötən dövrdə həyata keçirilən yaşıllaşdırma tədbirlərinin nəticəsidir ki, bu gün muxtar respublikada ümumi ərazinin 20 faizə yaxını yaşıllıqlardır. Həmçinin muxtar respublika ərazisinin 27 faizi xüsusi mühafizə olunur, nadir ağac və bitki növləri qorunur, eyni zamanda mütəmadi yaşıllaşdırma tədbirləri həyata keçirilir.

Ali Məclisin Sədri demişdir: Bu günə qədər muxtar respublikada müxtəlif tinglərə

*Ardı 2-ci səhifədə*





və gül kollarına olan tələbatın bir hissəsi idxal hesabına həyata keçirilirdi. Lakin yaradılan şərait imkan verəcəkdir ki, tələbat tamamilə yerli istehsal hesabına ödənilsin, ərazilərə uyğun meyvə və həmişəyaşıl tinglər, bəzək kolları və güllər yetişdirilsin. Müasir avadanlıqlarla təmin olunmuş "İqlim otağı"nda tinglər və gül kolları açıq havaya nisbətən daha tez böyüyür. Bu da daxili tələbatı iki dəfədən artıq ödəməyə imkan verir. Muxtar respublikanın aid təşkilatları ilə tingçilik sahəsi arasında qarşılıqlı əlaqə yaradılmalı, sifarişlər qəbul olunmalıdır. Kollektiv həm dövlət təşkilatlarının, həm də əhalinin tələbatına uyğun ağac və bəzək kolları yetişdirməlidir.

Ali Məclisin Sədri muxtar respublikanın tələbatının yerli istehsal hesabına ödəniləcəyinə əminliyini bildirmiş, kollektivə işlərində uğurlar arzulamışdır.

Məlumat verilmişdir ki, ərazidə 8 parnik və 4 bina tikilmiş, işçilər üçün lazımi şərait yaradılmış, iş otaqları istifadəyə verilmişdir. Əsas binada gül-bəzək kollarının və meyvə tinglərinin yetişdirilməsi üçün "İqlim otağı" yaradılmışdır. Otaqda 108 rəf quraşdırılmışdır.



Yaradılmış şərait toxum vasitəsilə 11 min 664, şitil və ya qələm vasitəsilə 4536 ədəd olmaqla, il ərzində 105 min müxtəlif növ ağac, gül və bəzək bitkiləri yetişdirməyə imkan verir. Otaq təbii hava şəraitindən tamamilə təcrid olunmuş, avtomatlaşdırılmış işıqlandırma, suvarma, havalandırma, isitmə və nəmləndirmə sistemləri ilə təchiz edilmişdir. Yaradılmış süni iqlim şəraiti burada istənilən növ bitkini yetişdirməyə və digər növ istixanalarla müqayisədə bitki yetişdirilməsi sahəsindəki məhsuldarlığı bir neçə dəfə artırmağa imkan verir.

"İqlim otağı"nda yetişdirilən bitkilər müvəqqəti saxlanma anbarına verilərək təbii şəraitə uyğunlaşdırılır və satışa çıxarılır. Ərazidə mağaza istifadəyə verilmiş, gübrə və digər vasitələrin saxlanması üçün də anbar yaradılmışdır. Bütün binalar istilik, elektrik və su sistemləri ilə təchiz olunmuşdur.

Naxçıvan Yaşıllaşdırma Xidmətinin 6 saylı Tingçilik Sahəsinə baxış olmuşdur. Bildirilmişdir ki, 4 hektar ərazini əhatə edən tingçilik sahəsində bu ilin ötən dövründə 81 min müxtəlif meyvə tingi, gül və bəzək kolları yetişdirilmişdir.

Ali Məclisin Sədri "İqlim otağı"nda tələbata uyğun tinglərin və gül kollarının yetişdirilməsi, eləcə də yerli sortlara üstünlük verilməsi və fəaliyyətin genişləndirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda beynəlxalq ekspedisiyalar fəaliyyətini davam etdirir

*Azərbaycan-ABŞ beynəlxalq arxeoloji ekspedisiyası 2008-ci ildən başlayaraq Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonları ərazisində arxeoloji tədqiqatlar aparır. Arxeoloji tədqiqatlar başlıca olaraq Oğlanqala və Qızqala yaşayış yerlərində və onun ətrafında aparılmışdır.*



Ekspedisiyanın rəhbərləri Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Vəli Baxşəliyev və Amerika Birləşmiş Ştatlarının Pensilvaniya Universitetinin professoru, arxeoloq Lauren Ristvetdir. Avstraliyanın Monash Universitetinin professoru Hilary Gopnik, Oksford Universitetinin doktoru Selin Nugent, Pensilvaniya Universitetinin arxeoloqu Robert Bryant və tələbəsi Jennifer Sverida, Pensilvaniya Muzeyinin bərpaçısı Tessa de Alarcon Martin, AMEA Naxçıvan Bölməsinin gənc əməkdaşları Elmar Baxşəliyev və Kamran Mehbalıyev isə ekspedisiyanın üzvləridir. Arxeoloji qazıntılara Pensilvaniya və Monash universitetlərinin 5 tələbəsi də cəlb olunmuşdur.

2008-2011-ci illərdə Oğlanqala yaşayış yerində arxeoloji qazıntılar aparılmış, yaşayış yerinin mərkəzi hissəsinin böyük bir qismi tədqiq edilmiş, Oğlanqala sitadelinin və onu əhatə edən müdafiə divarlarının planı müəyyənləşdirilmişdir. Tədqiqatlar zamanı Oğlanqala sitadelinin və onun qala divarlarının memarlıq xüsusiyyətlərinin, qonşuluqda yerləşən Urartu dövlətinin memarlığından tamamilə fərqli olduğu müəyyən olunmuşdur. Araşdırma zamanı Arpaçay vadisində Oğlanqala və Qızqala yaşayış yerlərini əhatə edən 480 hektar sahədə şəhər-dövlətin mövcud olduğu müəyyən edilmişdir. Bu şəhər-dövlət Azərbaycanın şimalında urartulara qarşı mübarizənin əsas mərkəzi olmuş və urartuların Naxçıvanı işğal etməsinə imkan verməmişdir. Urartular dəfələrlə bu əraziyə basqın etsələr də, məğlub şəkildə geri çəkilməyə məcbur olmuşlar.

Müəyyən edilmişdir ki, Oğlanqala şəhər-dövləti Azərbaycanın şimal və qərb bölgələrində möhkəmlənən Etiuni konfederasiyası və skiflərlə ittifaqda olmuş və urartuları dəfələrlə məğlub etmişlər. Urartu hökmdarı I Rusanın yazılarında onların bu məğlubiyyəti etiraf edilmişdir. Beynəlxalq ekspedisiyanın əldə etdiyi nəticələr "Amerikan Arxeoloji Jurnalı", "İranica Antica" kimi nüfuzlu və Tomson Science indeksinə daxil olan nəşrlərdə və digər beynəlxalq məcmuələrdə verilmiş, həmçinin bununla bağlı beynəlxalq konfranslarda məruzələr edilmişdir.

Arxeoloji ekspedisiya 2012-2017-ci illərdə həm kəşfiyyat xarakterli araşdırma, həm də Qızqala yaşayış yerində qazıntı aparmışdır. Qızqala yaşayış yerində aparılan araşdırmalar zamanı Naxçıvanın Orta Tunc dövrü mədəniyyəti öyrənilmiş, Naxçıvanın Şimal-Qərbi İran, Şərqi Anadolu və Cənubi Qafqazda yayılan Boyalı qablar mədəniyyətinin mərkəzi olduğu, Orta Tunc dövrünə aid ən qədim qalatipli yaşayış yerlərinin Naxçıvanda yerləşdiyi müəyyənləşdirilmişdir. Ekspedisiyanın əldə etdiyi nəticələrlə bağlı beynəlxalq konfranslarda məruzə olunmuş, beynəlxalq məcmuələrdə məqalələr nəşr edilmişdir. Bu il Qızqala yaşayış yeri haqqında Tomson Science indeksinə daxil olan "TUBA-AR" jurnalında məqalə nəşr olunacaqdır.

Mayın 18-dən etibarən Azərbaycan-ABŞ beynəlxalq arxeoloji ekspedisiyası Oğlanqala yaşayış yerində Atropatena dövrünə aid olan mədəni təbəqəni tədqiq edir. Ekspedisiya iyunun 30-dək davam edəcəkdir. Artıq ekspedisiyanın apardığı araşdırma nəticəsində Atropatena dövrünə aid ictimai binanın qalıqları ortaya çıxarılmış, Oğlanqalanın Atropatena dövlətinin əsas əyalət mərkəzlərindən biri olduğu müəyyənləşdirilmişdir. Arxeoloji araşdırmalar Atabəylər dövründə də Oğlanqalada intensiv yaşayış olduğunu təsdiq edir. Bu da bir daha sübut edir ki, Oğlanqalanın tədqiqi ölkəmizin tarixi ilə bağlı daha mühüm nəticələr verəcəkdir.

Muxtar respublikanın tarixi ilə yanaşı, onun təbiəti də beynəlxalq ekspedisiyaların diqqət mərkəzindədir. Macarıstan Quşları Müdafiə Cəmiyyətinin üzvləri, biologiya üzrə fəlsəfə doktorları Atilla Georgi Simay və Miklos Nagi mayın 30-da muxtar respublikaya gəlmişlər. Onlar AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşları ilə birlikdə Naxçıvan Muxtar Respublikasının orta dağlıq zonasında quşların yerləşməsini və mövcud vəziyyətini öyrənirlər.

Hollandiya vətəndaşları Zigervan Hirvijnen və Pieter Kleivegt Rijk isə 2-7 iyun tarixlərdə Şahbuz rayonunun Kükü və Nursu kəndlərində, Batabatda, Ordubad rayonunun Nürgüt və Pəzməri kəndlərində, Culfa rayonunun Ərəfsə kəndində və Şərur rayonunun Mahmudkəndində bitki örtüyünü tədqiq ediblər. Həmçinin tədqiqatçılar Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Toxum bankı"ndakı materiallarla tanış olublar. Toplanılan materiallar əsasında birgə məqalələr yazılacaq, elmi konfrans keçiriləcək, qonaqların məruzələri dinləniləcəkdir.

Rusiya Elmlər Akademiyasının Uzaq Şərq Bölməsinin entomoloqu, biologiya üzrə fəlsəfə doktoru M.Y.Proşalkin 10-25 iyun tarixlərdə muxtar respublikada səfərdə olacaq, yabanı arıların tozlanma prosesindəki iştirakına dair tədqiqatlar aparacaqdır.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi keçirilir



*Naxçıvanda "Sarsılmaz qardaşlıq – 2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi başlayıb.*

Təlimin ssenarisinə əsasən Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb.

Təlimə 5 min nəfərədək şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 ədəd təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnika nümunələri cəlb olunub. Təlimin məqsədi qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaqdır.

"Sarsılmaz qardaşlıq – 2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi iyunun 11-dək davam edəcək.

**Nəriman NƏCƏFOV**

## Muxtar respublikada taxıl biçininə başlanılıb

*Muxtar respublikanın Ordubad, Culfa və Kəngərli rayonlarında taxıl biçininə start verilib. Bununla əlaqədar olaraq "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində səyyar müşavirə keçirilib.*

Müşavirədə cəmiyyətin Texniki şöbəsinin rəisi Həzi Həsənov bildirib ki, builki taxıl biçinində 94 kombayn iştirak edəcək. Kombaynlar saz vəziyyətə gətirilib, kifayət qədər ehtiyat hissəsi alınıb.

Biçin zamanı kombaynlara yerlərdə servis xidmətləri də göstəriləcək. Hər bir kombaynçı və sahibkar hər hansı bir problemlə üzləşərsə, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə və onun rayon bazalarına müraciət edə bilərlər. Onların hər bir müraciəti yerindəcə həll olunacaq.

Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Xaliq Abbasov qeyd edib ki, torpaq mülkiyyətçiləri yaradılan şəraitdən səmərəli istifadə etməklə zəmiləri yaxşı becəriblər. Bu il taxılın alış qiymətləri növlərinə görə artırılıb. Belə ki, arpanın alış qiyməti bir kiloqramı 30, buğdanın 1 kiloqramı 35 və qarğıdalının 1 kiloqramı 40 qəpik olub. Verdikləri taxılın dəyəri nağd şəkildə təsərrüfat sahiblərinə yerindəcə ödəniləcək.

Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədov və Fövqəladə Hallar Nazirliyinin bölmə rəisi, daxili xidmət mayoru Mirtaleh Seyidov ot-taxıl biçinində yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunması məsələlərindən danışıblar.

Sonra kombaynçılara və sahibkarlara yanğın balonlarından istifadə qaydaları izah olunub, kombaynda baş verə biləcək müxtəlif nasazlıqların aradan qaldırılması ilə bağlı məsləhətlər verilib.

**Xəbərlər şöbəsi**

# Oxucu məktubları

*Minnətdarlıq*

## Su həyatdır



***Hörmətli redaksiya!***

Bol məhsul yetişdirmək üçün təbiətə həmişə bel bağlamaq olmur. Bir də görürsən ki, yazyay aylarında havalar quraqlıq keçir, günlərlə torpağa bir damcı yağış düşmür. Elə buna görə də muxtar respublikamızda suvarma sistemlərinin genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Aqrar sahənin inkişaf etdirilməsi, əhalinin ekoloji cəhətdən təmiz, keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin olunması üçün suvarma şəbəkələrinin genişləndirilməsi, torpaqların təsərrüfat suyuna olan tələbatının ödənilməsi diqqət mərkəzində saxlanılır. Bu tədbirlərin sayəsində bir vaxtlar susuzluqdan cadar-cadar olmuş torpaqlarımız, ilan mələyən çöllərimiz indi gülüstana dönüb. Yaxşı deyiblər ki, su həyatdır.

Bu yaxınlarda kəndimizə daha bir dövlət qayğısı göstərildi. Yeni qapalı suvarma şəbəkəsi istifadəyə verildi, əhalinin mövcud su problemi aradan qaldırıldı. Bu, əkinçilik və heyvandarlıqla məşğul olan kənd adamlarına ən böyük hədiyyə oldu. Su təminatının yaxşılaşdırılması tütünçülüyü də inkişaf etdirəcək. Suyun bolluğu hesabına torpaqlarımız yaşıl libaslı, barlı-bəhərli olacaq. Xahiş edirəm, bu məktub vasitəsilə kənd sakinləri adından bu şəraiti yaradanlara minnətdarlığımı çatdırasınız:

– Babalarımızdan qalmış su çəkib, yol salmaq kimi xeyirxah ənənələri bu gün də yaşadanların, elinin, camaatının qədrini bilənlərin su qədər ömrü olsun!

**Pəricahan MƏMMƏDOVA**
***Kəngərli rayonu,***
***Yurdçu kəndi***
***ailə təsərrüfatı sahibi***

## Təmənnasız tibbi xidmətin təşkili böyük qayğıdır

Gözlərimiz Günəşin aydınlatdığı bu dünyaya açılan pəncərə, dünyaya gəldiyimiz gündən köçəcəyimiz günə kimi bizim yolyoldaşımızdır. Onların köməyi ilə dünyanın gözəlliklərini doyunca seyr edir, həyatdan zövq alırıq. Yaşımız ötdükcə, məşğul olduğumuz iş və ya başqa səbəblərdən bəzən gözümüzün nuru azalır, müxtəlif xəstəliklərə düçar olur.

Bir neçə ay idi ki, gözlərimdə qızartı və şişkinlik, zəifləmə hiss edirdim. Müalicə üçün həkimə müraciət edəndə öyrəndim ki, gözüm əməliyyat olunmasa, müəyyən bir vaxtdan sonra görmə qabiliyyətimi ömürlük itirə bilərəm. Bu xəbər məni də, yaxınlarımı da çox məyus etdi. Evə gəlib bu əməliyyatı harada keçirəcəyim barədə məsləhətləşdik. Amma bir qərara gələ bilmədik. Bir neçə gün sonra Bakı şəhərində fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadasının muxtar respublikamıza dəvət olunması barədə xəbər aldım. Mən də müayinə və müalicə üçün müraciət edib təmənnasız əməliyyat olundum.



Onu da deyim ki, ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş aksiyada 15 nəfər göz əməliyyatı nəticəsində sağlamlığına qovuşdu. Bunun necə böyük savab iş olduğunu dünya işığından ömürlük məhrum olmaq kimi dəhşətli bir təhlükə ilə üz-üzə qalanlar daha yaxşı anlayar. Allah bu savab yiyələrinin gözlərinə nur, qollarına qüvvət versin!

Mən müayinə və müalicəyə cəlb olunan insanlar adından göstərilən təmənnasız tibbi xidmətə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Əbülfəz BABAYEV**
***Babək rayonu,***
***Şıxmahmud kəndi***

## Şəfalı əlləriniz var olsun



***Salam, hörmətli redaksiya!***

Mən 45 il Məhəmməd Füzuli adına Ordubad şəhər internat məktəbində gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşam. 2018-ci ildən təqaüdə çıxmışam.

Tale elə gətirdi ki, xəstələndim. Naxçıvan şəhərindəki Diaqnostika Müalicə Mərkəzinə üz tutdum. Həkimlər böyrəklərimin müalicəsi üçün hemodializ aparatına qoşulmağımı məsləhət gördülər. Qeyd edim ki, əvvəllər xroniki böyrək çatışmazlığı olan xəstələr muxtar respublikada hemodializ aparatlarının məhdudiyyəti üzündən paytaxt şəhərimiz Bakıya, qonşu ölkələrə getməyə məcbur olurdular. Dövlətimizin insan sağlamlığına qayğısı, səhiyyənin inkişafına daim diqqət göstərilməsi nəticəsində hazırda muxtar respublikanın səhiyyə müəssisələrində 34 müasir hemodializ aparatı fəaliyyət göstərir. Onlardan da 10 ədədi Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin payına düşüb.

Mərkəzin həkimləri Mustafa Əliyev və Ələsgər Qasımov mənim sağalmağım üçün səy və bacarıqlarını əsirgəmədilər. Onlar həssas, insanların dərdinə şərik olan bir mütəxəssis kimi qəlbimə yol tapdılar. Müalicə aldığım müddətdə həkimlərin digər xəstələrə də belə münasibət bəslədiklərini görürdüm. Və düşünürdüm ki, bu gün Naxçıvanımızda Hippokrat andına sadiq qalan belə həkimlərimiz çoxdur.

Tibb bacılarından Xuraman Cabbarova, Saimə Həsənova, Gülzar Ağayeva və başqaları da burada müalicə olunan xəstələrə qayğı ilə yanaşırlar. Artıq özümü çox sağlam və gümrah hiss edirəm, öz ailəmin yanındayam. Mənə belə sağlam həyat bəxş edən Diaqnostika Müalicə Mərkəzinin Hemodializ şöbəsinin həkimlərinə, tibb bacılarına cansağlığı, uzun ömür, ailə səadəti, işlərində müvəffəqiyyətlər arzulayıram.

**Yusif MƏMMƏDOV**
***təqaüdçü-müəllim***
***Ordubad şəhəri***

*Razılıq*

## Ziyarətgaha gediş-gəlişin asanlaşdırılması hamının ürəyincədir

***Hörmətli redaksiya!***



Naxçıvanda dünyaya gəlib, böyüsəm də, 60 ildir ki, Bakı şəhərində yaşayıram. Təbii ki, ildə ən azı bir dəfə yurduma-yuvama gəlir, yaxınlarımı görürəm. Buraya hər dəfə gələndə Əshabi-Kəhfi mütləq ziyarət edirəm. Orada ruhum, qəlbim sakitlik tapır, özümü Tanrıya daha da yaxın hiss edirəm.

Hələ kiçik yaşlarımdan bu ziyarətgah haqqında nənəmin söhbətlərindən eşitmişdim. Nənəm bura niyyət edib gələnlərin öz arzusuna çatıb-çatmayacaqlarına ziyarətdəcə işarət gəldiyini, buna görə də Əshabi-Kəhfi yeddi il dalbadal ziyarət etməyin Kərbəla, hətta Həcc ziyarətinə bərabər olduğunu söyləyərdi. O vaxtlar, elə indi də buraya niyyət edib piyada gələnlər var. Cavanlıqda mən də Naxçıvan şəhərindən buraya qədər olan 12 kilometr yolu piyada gəlirdim. Yollar da ki bərbad vəziyyətdə...

Artıq yaşım o yaş deyil, daha ayaqlarım sözümə baxmır, ona görə də bir neçə ildir ki, taksi ilə gətməli olurdum. Sözün düzü, buna görə ildə bir dəfə ancaq ziyarət edə bilirdim buranı. Çox arzu edirdim ki, Naxçıvanda qaldığım bir-iki ay ərzində Əshabi-Kəhfi bir neçə dəfə ziyarət edim, amma məlum səbəbə görə gedə bilmirdim.

Düz 10 gündür ki, doğma elimdəyəm. Dünən ziyarətə getmək üçün nəvəmdən taksi çağırmasını xahiş edəndə mənə sevindirici bir xəbər verdi. Öyrəndim ki, ötən günlərdə Əshabi-Kəhfə marşrut xətti açılıb. Bu müqəddəs ziyarətgaha həm çox rahat, həm də əlavə xərc çəkmədən hər gün ziyarətə gedib qayıda bilməyin mümkün olması xəbəri məni çox sevindirdi. Nəvəmlə birgə mən də həmin marşrutla ziyarətə getdik. Orada bu gözəl günləri bizə qismət edən Tanrıya dua edib, belə şəraiti yaradanlara Allahdan uzun ömür, cansağlığı dilədim.

Təkcə xalqımız üçün deyil, Naxçıvana çox uzaqlardan gələn qonaqlar üçün də müqəddəs sayılan bu ziyarətgahda hər cür şərait – abad və rahat yol, ziyarətgaha qalxmaq üçün pilləkənlər, təmizlik və səliqə-sahman yaradılması ilə bərabər, rahat gediş-gəlişin də təmin edilməsinə görə dövlətimizə minnətdaram.

**Pakizə HÜSEYNOVA**
***Bakı şəhəri***

## Gənclərimizin təhsili üçün hər cür şərait yaradılıb

***Hörmətli redaksiya!***




Muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, təhsil də qayğı ilə əhatə edilib. Bu gün təkcə Naxçıvan şəhərində yox, bütün rayon və kəndlərimizdə binaları ali təhsil ocaqlarının binalarından heç də seçilməyən geniş, işıqlı, elektron lövhəli sinif otaqları, laboratoriyalar, fənn kabinələri, kompüter sinifləri, müasir idman zalları olan məktəblər müəllim və şagirdlərin ixtiyarına verilib, onların elm, bilik dünyasına aparan yollarını işıqlandırıb. Yaradılan şəraitdən səmərəli istifadə edənlərin isə səsi respublikamızın və dünyanın sayılıb-seçilən universitetlərindən gəlir.

10 ildən artıqdır ki, Şərur rayonunun Yuxarı Daşarx kənd tam orta məktəbində müəllim işləyirəm. İki oğlum var. Əlbəttə ki, hər bir valideyn kimi, ən böyük arzum övladlarımın ali təhsil alması və gələcəkdə Vətəninə layiq bir övlad kimi yetişməsidir. Bu arzumun reallığa çevrilməsində isə ən böyük köməyimiz dövlətimizdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin yaradılması bir çox ailənin sevincinə səbəb olub.

Onu da qeyd edim ki, böyük oğlum Sinan Qəhrəmanov Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə ilk qəbul olan şagirdlərdəndir. O, 351 balla doqquzuncu sinifdən bu liseyə qəbul olunmuşdu. Buranı 2018-ci ildə bitirib, ikinci ixtisas qrupunda 630 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq İqtisadiyyat Məktəbinin tədrisi ingilis dilində aparılan İqtisadiyyat fakültəsinə qəbul olunub.

Sinanın qazandığı nailliyyətlərdən sonra ikinci oğlum Məhəmmədin də təhsilini həmin liseydə davam etdirməsini istədiyimiz üçün o, bu il həmin təhsil ocağına qəbul imtahanı verdi. İmtahanda 407 bal toplayıb təhsilini liseydə davam etdirmək şansı qazandı.

Sevincimin həddi-hüdudu yoxdur. Elə bu məktub vasitəsilə sevincimi sizinlə də bölüşmək qərarına gəldim. Övladımızın bu uğuru ailəmizi qürurlandırmaqla bərabər dövlətimizə də minnətdarlıq hissimizi artırır. Belə təhsil ocaqlarının fəaliyyət göstərməsi ailələrə hərtərəfli dəstək olmaqla yanaşı, gözəl Vətənimizin gələcəyi olan gənclərin də ixtisaslı mütəxəssis kimi yetişmələrinə öz töhfəsini verir.

Mən bir valideyn kimi övladlarımıza ata qayğısı ilə yanaşan muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

**Elnarə QƏHRƏMANOVA**
***Şərur rayonu, Yuxarı Daşarx kəndi***

## Müasir avadanlıqlar işgüzarlığımı artırıb

***Hörmətli redaksiya!***

Bu məktubu sizə Kırna kəndindən ünvanlayıram. Naxçıvan Muxtar Respublikasında ailələrin maddi və mənəvi tələbatlarının ödənilməsi, həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Diyarımızda aztəminatlı ailələrin məşğulluğunun təmin edilməsi ilə bağlı görülən işlər davamlı xarakter alıb. Bu tədbirlər həmin ailələrə dövlət qayğısının ifadəsi olmaqla yanaşı, bu qəbildən olan insanların həyat şəraitinin yaxşılaşdırılmasında mühüm rol oynayır.

Aztəminatlı ailələrin özünüməşğulluğunun təmin edilməsi ilə əlaqədar ailə əmayinə əsaslanan fərdi təsərrüfatların yaradılması da diqqətdə saxlanılır. Uzun müddət ünvanlı dövlət sosial yardımı alan ailələrə fərdi təsərrüfatlarını qurmaq, öz iş yerlərini açmaq üçün müvafiq köməkliklər göstərilir. Mən də uzun müddətdir, ünvanlı dövlət sosial yardımı alırdım. Dörd övladım var. Onlardan ikisi tələbədir, bir övladım isə fiziki qüsurludur.

20 ildən artıqdır ki, pinəçilik edirəm. Lakin alətlərim yaxşı olmadığı üçün işim o qədər də asan deyildi. Müasir avadanlıqlar almaq üçün Culfa Rayon Məşğulluq İdarəsinə müraciət etdim. Çox keçmədən müraciətimə cavab verildi. İş yerimə nazirliyin əməkdaşları tərəfindən baxış keçirildikdən sonra müasir avadanlıqlarla təmin olundum. İndi rahatlıqla işləyə bilirəm, müştəri də məmnun qalır.

Ailəm adından göstərilən dəstəyə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Elşən ƏLİZADƏ**
***Culfa rayonu, Kırna kəndi***

## Universitetlərdə Keyfiyyətə nəzarət mərkəzlərinin yaradılması ali təhsilin inkişafına öz töhfəsini verəcək



Bu fikirlər İspaniyanın Alicante şəhərində, eyniadlı universitetdə təşkil olunmuş “Azərbaycan universitetlərində Keyfiyyətə nəzarət mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi” adlı Erasmus+ layihəsinin növbəti iclasında “Naxçıvan” Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, layihə meneceri Rəcəb Cəfərli tərəfindən səsləndirilib.

Qeyd edək ki, 2- 8 iyun tarixləri arasında keçirilən təlimlərdə İngiltərənin Middlesex, İsveçin Kral Texnologiya, İspaniyanın Alicante, Litvanın SMİC Təbiqi Elmlər universitetlərinin ekspertləri və Azərbaycanın 11 ali təhsil müəssisəsindən nümayəndələrlə yanaşı, “Naxçıvan” Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, layihə meneceri Rəcəb Cəfərli, Tədris şöbəsinin müdiri Anar Abuzərli, Mühasibatlıq şöbəsinin müdiri Xəyal Heydərov, Xarici dillər kafedrasının müdiri Anara Nəsirli və həmin kafedranın baş müəllimi Könül Babayeva da iştirak edirlər.

**Seyfur HACIMURADOV**

## İdmançımız beynəlxalq turnirin qalibi olub

***Xırdalan şəhərindəki “Zirvə” İdman Klubunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş “Pouerlifting Bench-Press” idman növü üzrə beynəlxalq turnir keçirilib.***

İkigünlük turnirdə Azərbaycan, Türkiyə, İran və Gürcüstan komandalarının idmançıları iştirak ediblər. Millimizin həyatında Naxçıvan Muxtar Respublikasının idmançısı, dünya, Avropa və respublika çempionu Əli Əsgərov da birincilik uğrunda mübarizə aparıb.



İdmançımız 82,5 kiloqram çəki dərəcəsində bütün rəqiblərini üstələyərək beynəlxalq turnirin qalibi olub.

Sonda qalib idmançımız təşkilatçılar tərəfindən diplom və medalla mükafatlandırılıb.

## Güləşçimiz bürünc medal qazanıb

***Gürcüstan Respublikasının Kutaisi şəhərində sərbəst güləş üzrə beynəlxalq turnir keçirilib.***




Turnirdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının idmançısı da mübarizə aparıb. 38 kiloqram çəki dərəcəsində döşək üzərinə çıxan Yəhya Paşayev yarımfinal mərhələsinə kimi bütün rəqiblərini məğlub edib. Bu mərhələdə məğlubiyyətlə üzləşən güləşçimiz üçüncü yer uğrunda görüşdə ermənistanlı idmançı ilə üz-üzə gəlib. Keçirilən qarşılaşmada əzmkarlıq göstərən Yəhya Paşayev rəqibini məğlub edərək beynəlxalq turnirin bürünc medalını qazanıb.

İdmançımız təşkilatçılar tərəfindən diplom və medalla mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2019-cu ilin may ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1661040 | 166104 | 166260 | 100,1 |
| 2. | Babək rayonu | 1402381 | 140238 | 140356 | 100,1 |
| 3. | Ordubad rayonu | 672033 | 67203 | 67243 | 100,1 |
| 4. | Şərur rayonu | 1098999 | 109900 | 109948 | 100,0 |
| 5. | Kəngərli rayonu | 488286 | 48829 | 48846 | 100,0 |
| 6. | Culfa rayonu | 631575 | 63158 | 63168 | 100,0 |
| 7. | Sədərək rayonu | 133246 | 13325 | 13326 | 100,0 |
| 8. | Şahbuz rayonu | 425464 | 42546 | 42547 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 1722336 | 344027 | 455642 | 132,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **8235360** | **995330** | **1107336** | **111,3** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2019-cu ilin may ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2715 | 201,0 | 201,0 | 100,0 |
| 2. | Şərur rayonu | 1945 | 138,1 | 138,1 | 100,0 |
| 3. | Babək rayonu | 1470 | 104,4 | 104,4 | 100,0 |
| 4. | Ordubad rayonu | 965 | 68,6 | 68,6 | 100,0 |
| 5. | Culfa rayonu | 751 | 53,3 | 53,3 | 100,0 |
| 6. | Kəngərli rayonu | 500 | 35,5 | 35,5 | 100,0 |
| 7. | Şahbuz rayonu | 296 | 21,0 | 21,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 177 | 12,6 | 12,6 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 28433 | 2559,0 | 2563,9 | 100,2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **37252** | **3193,5** | **3198,4** | **100,2** |

**Qeyd:** May ayında texniki itki nəzərə alınmaqla daxil olan 37 milyon 252 min kilovat/saat elektrik enerjisinin dəyəri 3 milyon 193 min 500 manat olmuş, cəmi 3 milyon 198 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,2 faizini təşkil edir.

## 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına əyani təhsil üzrə kursantların qəbuluna dair elan

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında İnformasiya təhlükəsizliyi ixtisası üzrə əyani təhsilə 25 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində I ixtisas qrupunun fənləri üzrə keçirilmiş imtahandan 400-dən yuxarı bal toplamış, Azərbaycan dilini sərbəst bilən, boyu azı 170 santimetr, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2019-cu il avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından oğlanlar iştirak edə bilərlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2019-cu ilin iyul çağırışında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında” Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2019-cu il iyun ayının 8-dən 28-dək hər gün (bazar günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Daxili İşlər Nazirliyinin inzibati binasında həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*

*- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili İşlər Nazirliyinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*

*- oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*

*- 9x12 santimetr ölçüdə 2 ədəd, 4x6 santimetr ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, donuq kağızda).*

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (156,160,134)

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif edilir və onlar abituriyent hesab olunurlar.

Abituriyentlər Daxili İşlər Nazirliyinin xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq imtahanı və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdədartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış 100 metr məsafəyə –15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılıb endirilməsi– 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması– 20 dəfə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılırlar. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyalarının iş vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin *www.mia.gov.az* internet saytında yerləşdiriləcəkdir.

Daxili İşlər Nazirliyi tərəfindən keçirilən sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir və birinci mərhələdə buraxılış imtahanı fənləri üzrə, ikinci mərhələdə isə I ixtisas qrupunun fənləri üzrə keçirilmiş test imtahanlarının nəticələrinə əsasən kursantlar seçilir.

İkinci mərhələnin ikinci imtahanının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilmişdir. Abituriyentlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust-14 sentyabr 2019-cu il tarixlərdə akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 16 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara XTB050615 – informasiya təhlükəsizliyi ixtisası, “polis leytenantı” xüsusi və “ehtiyatda olan leytenant” hərbi rütbələri verilməklə, onlar daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

## Elan

“Babək Sirab” ASC-nin rəhbərliyi səhmdarların nəzərinə çatdırır ki, 18.07.2019-cu il tarixdə saat $11^{00}$-da cəmiyyətin inzibati binasının iclas zalında səhmdarların yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. Görülən işlərin illik hesabatı*

*2.Görüləcək işlər barədə.*

### *İtmişdir*

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin adına verilmiş 21.05.2002-ci il tarixli qeydiyyat vəsiqəsi itmişdir.

* * *

Şahbuz rayonunun Biçənək kəndində Nəbiyev Əlizadə Əlif oğluna məxsus fərdi yaşayış evinə verilmiş MH-0007352 inventar nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonu, Böyükdüz kənd sakini Baxşəliyev Baxşəli Vəli oğlunun adına olan JN-256A “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Mahmudov Kəramət Fərəməz oğlunun adına olan A-464266 seriya nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 390